

# TÜRKİYƏNİN KİTABXANAÇILIQ TARİXİNDƏN

**Müasir Avropa ölkəsi olan Türkiyənin ərazisinin 97%-i Kiçik Asiyada, 3%-i isə Avropada yerləşir. Ölkə şimal-şərqdən Azərbaycan, Gürcüstan və Ermənistanla, şərqdən İranla, cənubdan Suriya və İraqla həmsərhəddir. Bosfor və Dardanel boğazları, Mərmərə dənizi Türkiyənin Avropa hissəsini Asiya hissəsindən ayırır.**

Sahəsi 814578 km2, əhalisi 65,5 mln. nəfərdir (1999-cu ilin məlumatı). Paytaxtı Ankara şəhəridir.

İdarəetmə forması - respublikadır. Dövlət başçısı Türkiyə Böyük Millət Məclisinin öz üzvləri arasından 7 il müddətinə seçdiyi prezidentdir. İcra hakimiyyətini prezident və baş nazirin başçılıq etdiyi hökumət həyata keçirir.

1923-cü il oktyabrın 29-da Böyük Millət Məclisi Türkiyəni respublika elan etdi. Mustafa Kamal Atatürk ölkənin ilk prezidenti seçildi.

Əsas bayramları:

23 aprel - Milli İstiqlaliyyət günü

30 avqust - Qələbə günü

29 oktyabr - Respublika günü

10 noyabr - Atatürkün anım günü.

Türkiyə Respublikasında ilk kitabxanalar Səlcuq və Osmanlı sülalələri dövrünə aiddir. Əlyazma və qədim çap kitablarının kolleksiyaları türk sultanları, dövlət və din xadimlərinin əlində toplanmışdı. Bir çox kitab kolleksiyaları məscid və mədrəsələrdə qorunub saxlanılırdı.

Ölkədə respublika elan olunduqdan sonra elm və təhsil sahəsində bir sıra yeniliklər meydana gəldi, din dövlətdən ayrıldı, dini və dərviş məzhəblərinə qadağa qoyuldu, şəxsi kitablar, məscid və mədrəsə kitabxanaları milli sərvət elan edilərək Milli Təhsil Nazirliyinin sərəncamına verildi. 1960-cı ildə Nazirliyin tərkibində kitabxanalar üzrə Baş direksiya fəaliyyət göstərməyə başladı.

Şəxsi kolleksiyalardan toplanmış əlyazmalar və qədim kitablardan ibarət kitabxanalar hissə-hissə muzeylərə və elmi kitabxanalara ilkin sahibinin adını həkk etməklə təhvil verilir, xüsusi fond kimi mühafizə olunur, yeni nüsxələr hesabına komplektləşdirilir və nəticədə özünün tarixi simasını saxlamış olurdu.

Türkiyənin iri kitabxanaları qədim kitabların şəxsi kolleksiyalarını və ayrı-ayrı əlyazmaları almaqda indi də davam edir. Kitabxanalarda yaranan mövcud tarixi vəziyyətlə əlaqədar Türkiyə dövlətinin arxivlərində ərəb, fars, türk və bir sıra Şərq dillərində dünyada mövcud olan əlyazmaların 80%-i cəmləşmişdir. Bundan əlavə yunan, latın və digər Qərbi Avropa dillərində də müəyyən qədər əlyazmalar vardır.

Xüsusi kitabxana təhsilini Ankara və İstanbul universitetlərinin kitabxanaşünaslıq kafedralarında almaq olar. Uşaqlar üçün isə kitabxanaçı peşəsinə yiyələnmək üçün Səlcuq universitetinin pedaqoji fakültəsində oxumaq lazımdır. Ancaq ölkədə ixtisaslı kitabxanaçı kadrlara ehtiyac vardır. Bütün kitabxanalar aşağıdakı tiplərə görə təsnifləşdirilmişdir:

1. Kütləvi və munisipal (bələdiyyə);
2. Uşaq kitabxanaları;

3. Milli kitabxana;
4. Universitet və digər təhsil müəssisələrinin kitabxanaları;
5. Xüsusi və müəssisə kitabxanaları (elmi və muzey).

Türkiyənin müasir kütləvi kitabxanalarının fondlarında toplanmış kitablardan ümumi məsələlərə aid (10,9%). bədii ədəbiyyat (31,9%), dilçilik (3,1%), nəzəri məsələlərə görə (4,4%), praktiki məlumatlar (7,2%), həmçinin dəqiq və humanitar elmlər (11,9%), fəlsəfə (3,6%), ictimai-siyasi məsələlərə aid (15,3%) və digər elm sahələrinə aid (13,2%) ədəbiyyat təşkil edir.

90-cı illərin əvvəllərinə olan məlumata görə, kütləvi kitabxanaların ümumi sayı 700-dən bir az çoxdur və onlardan 20 milyona yaxın oxucu istifadə etmişdir. Oxucuların çox hissəsini tələbələr və digər sahələrdə oxuyanlar (88,4%) təşkil edir. Kültəlvi kitabxanaların çoxunda səyyar məntəqələr də fəaliyyət göstərir.

Kütləvi kitabxanaların ümumi kitab fondu 7,8 mln. nüsxə çap məhsulu təşkil edir. Ümumi fondun 4,1%-i əlyazmalardan ibarətdir. Kitabxana fondunun böyük hissəsi (90%-i) türk dilində olan ədəbiyyatdır. Xarici dillərə görə ədəbiyyat aşağıdakı kimidir: ərəb dilində - 32,7%, fransız dilində - 6,3%, digər dillərdə - 13,5%. Kütləvi kitabxanalarda 15 minə yaxın kitabxanaçı və kitab verilişi ilə məşğul olan min nəfərdən çox işçi çalışır.

**Ankara şəhər kütləvi kitabxanası.**

Əsası 1922-ci ildə qoyulub. Onun fondunda türk dilində 23 min nüsxə, Avropa dillərində 11,2 min nüsxə, digər Şərq dillərində 5,2 min nüsxə çap məhsulları toplanmışdır. Kitabxanada ərəb, türk və fars dillərində olan 1,2 min nüsxə əlyazma da vardır. Kitabxana bütün türk nəşrlərinin məcburi nüsxəsini alır.

**Balıkesir şəhər kütləvi kitabxanası.**

Əsası 1901-ci ildə qoyulmuşdur. Fondunda türk dilində 31,7 min nüsxə, Avropa dillərində 2,4 min nüsxə kitablar toplanmışdır. Fondu daha qiymətli edən ərəb, fars və türk dillərində olan 800-dən çox manuskriptlərdir.

Bəyazid məscidinin tərkibində fəaliyyət göstərən Dövlət Kütləvi kitabxanası 1882-ci ildə yaradılmışdır. İstanbul şəhərinin ən böyük və ilk kitabxanalarındandır. Osmanlı imperiyasının yüksək məzhəb sahiblərinin 30 əlyazma və kitab kolleksiyası məhz bu kitabxananın fondunda saxlanılır. Kitabxana ölkə ərazisində nəşr olunan bütün türk dilində olan ədəbiyyatın məcburi nüsxəsini almaq hüququna malikdir.

Bu kitabxana yaranan dövrə qədər mövcud olan kitabxanaların əksəriyyəti vəqf kitabxanaları olmuş və Vəqf Nazirliyi tərəfindən idarə edilmişdir. Kitablara oxucu tələbatının artmasını nəzərə alan dövlət müasir tipli kitabxana yaratmaq məqsədilə xüsusi komissiya təsis etmişdir. Komissiya Bəyazid Külliyəsinin abad bir hissəsini Vəqf Nazirliyindən alıb külliyənin imarət hissəsini kitabxanaya çevirmişdir. Bu işdə Mustafa Paşanın mühüm xidmətləri olmuşdur. Əvvəllər imarətin kitabxanaya ayrılan 6 qübbəli hissəsi şəhərə gələn qonaqların atlarının saxlandığı yer olmuş, sonra əsaslı təmir buranı İstanbulun ən böyük kitabxanasına çevirmişdir. Kitabların bağışlanması, dövlətin yardımı və başqa imkanlar hesabına kitabxananın fondu xeyli artmışdır. O dövrdə çap tarixi məlum olmayan bir kataloqa görə, kitabxana fondundakı kitabların sayı 8054-ə çatmışdı. Lakin sonralar kitabxana böyük sarsıntılara məruz qalmışdır. Bu sarsıntıları ona yaşadan isə bir neçə il davam edən və dövlətin bir çox başqa sahələrinə də zərər vuran Balkan müharibəsi idi. Bu illərdə oxucu olmadığından kitabxana bir neçə il müddətinə bağlanmışdır. Yalnız 1947-1955-ci illərdə kitabxana qarşısında duran bir çox problemləri həll edərək yenidən oxucuların istifadəsinə verildi.

Hal-hazırda kitabxananın fondu 500.000-dən çoxdur ki, onun 11.200-ü əlyazma, 3.300-dən çoxu foto-şəkil, 20.000-ə qədəri isə dövri nəşrlərdir. Kitabxananın ilk çap kataloqu 1880-ci ildə Sultan II Əbdülhəmid dövründə tərtib edilmişdir.

**İstanbul munisipal (bələdiyyə) kitabxanası.**

1929-cu ildən oxuculara xidmət göstərir. Kitabxananın tərkibinə şəhərin Atatürk kitabxanası və beş muzeyi daxildir. Kitabxana fondunun əsasını türk tarixçisi Əhməd Cevdətin əlyazmaları və kitab kolleksiyası, həmçinin bir neçə şəxsi kitab külliyyatı təşkil etmişdir. Kitabxananın fondunu Osmanlı imperiyasının tarixini əks etdirən 160 min nüsxə türk və Avropa dillərində elmi, elmi- kütləvi nəşrlər və elmi məcmuələr təşkil edir. Kitabxananın mühüm xüsusiyyəti - XIX əsrdən başlayaraq müntəzəm surətdə türk dövri mətbuatını toplamasıdır. Kitabxananın əlifba kataloqu nəşr olunmuşdur.

**İzmir şəhər mərkəzi kitabxanası.**

1912-ci ildə açılmışdır. Əyalət kitabxanalarından ancaq bu kitabxana Türkiyədə çıxan bütün nəşrlərin məcburi nüsxəsini alır. Onun fondu 70,0 min türk dilində olan ədəbiyyatdan, 1,3 min əlyazmadan, 10,5 min köhnə çapla çıxan nüsxələrdən, 20 min Avropa dillərində olan kitablardan ibarətdir.



Türkiyədə uşaq kitabxanaları ilk dəfə 1925-ci ildə açılmışdır. Bir sıra uşaq kitabxanaları kitab fondunun oxucu meyarına görə dəyişikliyə məruz qaldığı üçün kütləvi kitabxanalara çevrilmişdir. 1990-cı ilin məlumatına görə, ölkədə 109 uşaq kitabxanası fəaliyyət göstərirdi. Onlar əsasən İstanbul, İzmir, Ankara kimi iri şəhərlərdə cəmləşmişdir. Oxucu kontingentini əsasən 16 yaşına qədər olan uşaqlar təşkil edir. Kitabxanaların ümumi fondu 503,5 min nüsxə kitab və 3,2 min nüsxə dövri nəşrlərdən ibarətdir. Əsərlərin böyük hissəsini bədii ədəbiyyat (53,2%), ictimai elmlər (14,7%), tarix, coğrafiya və biologiyaya aid ədəbiyyat (9,2%) təşkil edir. Xarici dillərdə olan kitabların əksəriyyəti ingilis, fransız və alman müəlliflərinə aiddir.

Türkiyənin universitet və digər təhsil müəssisələrinin kitabxanaları da elmin və təhsilin inkişafında böyük rola malikdirlər. Ali məktəb kitabxanaları içərisində universitetlərin kitabxanaları mühüm yer tutur. Bu kitabxanalar ali məktəb kitabxanalarına xas olan vəzifələri yerinə yetirir və bundan əlavə, təhsilin tələblərinə uyğun olaraq tələbələrin ümumelmi hazırlığına və onlarda elmi-tədqiqat fəaliyyəti vərdişləri aşılamağa kömək edirlər.

**Ankara universitet kitabxanası.**

1950-ci ildə yaradılmışdır. Kitabxananın fondu 77,0 min cilddən artıqdır. Bundan əlavə 400 minə qədər kitab ayrı-ayrı fakültələrin kitabxanalarında yerləşdirilmişdir. Onlardan ən əhəmiyyətli və zəngin olanı dil, tarix və coğrafiya fakültəsinin kitabxanasıdır. 200 mindən artıq müxtəlif dillərdə və həmçinin köhnə çaplı türk kitabları, türk, ərəb, fars dillərində olan 25 min əlyazma və müxtəlif dövri mətbuat məhsullarından tələbələr kifayət qədər istifadə edirlər.

Nadir kitab fonduna malik kitabxanalardan biri də Tarix İnstitutu kitabxanasıdır. Onun fondunu 8 min çap vahidi ədəbiyyat təşkil edir. Türkiyə inqilab tarixini əks etdirən çap nəşrləri, inqilab tarixinin şanlı nailiyyətlərini xalqa çatdıran yazılı müraciətlər, Türkiyə milli-azadlıq hərəkatının rəhbərlərinin yazışmaları, fotomateriallar və qiymətli sənədlər tədqiqatçılar üçün əvəzolunmaz mənbədir. 1863-cü ildən fəaliyyətə başlayan Bosfor Universitet kitabxanasının fondunda əsasən ingilis və digər Avropa dillərində nəşr olunmuş 182 min nüsxədən çox ədəbiyyat vardır. 32 min nüsxə kitab isə Yaxın Şərq xalqlarının dillərindədir.

**Orta Şərq Texniki Universitet kitabxanası.**

1956-cı ildən fəaliyyət göstərir. Mərkəzi texniki və universitetin hər bir fakültəsinin kitabxanasından ibarətdir. Mərkəzi texniki kitabxananın fondunda 358 mindən çox kitab və 3,1 min adda dövri mətbuat və müxtəlif normativ-texniki sənədlər yerləşdirilmişdir.

Kitabxana ölkədə ilk dəfə olaraq audiovizual vasitələrlə, səsyazma aparatlarıyla, mikrofilmlərin mübadilə fondu ilə təhciz olunmuşdur. Kitabxananın kompüter mərkəzi ən müasir tələblərə cavab verir.

**İstanbul Universitet kitabxanası.**

1925-ci ildə tələbə və müəllimlərin istifadəsinə verilmişdir. Mərkəzi kitabxana türk və Qərbi Avropa dillərində 295 min nüsxə kitab və dövri mətbuatdan ibarət fondu özündə birləşdirir. Kitabxanada ərəb, fars və türk dillərində yazılmış 18,3 min əlyazma nüsxələri də qorunub saxlanılır. Kitabxana İstanbul Universitetində dərc olunmuş nəşrlərin biblioqrafiyasını da dərc edir.

İdarə və xüsusi kitabxanaları (elmi və muzey) üç qrupa bölmək olar: a) nazirlik və idarələrin xidməti kitabxanaları; b) elmi müəssisə və cəmiyyətlərin kitabxanaları; c) memorial (xatirə) və muzey kitabxanaları.

Nazirlik və idarələrin xidməti kitabxanaları müəssisənin profilinə uyğun komplektləşdirilir və bir qayda olaraq onların oxucu kontingenti məhduddur.

**Türkiyə Böyük Milli Məclisinin Kitabxanası.**

Ən böyük müəssisə kitabxanasıdır. Əsası 1920-ci ildə qoyulmuşdur. Onun fondunda 84,5 min kitab türk, 100 minə yaxın Avropa, 2,1 min nüsxə ərəb və fars , 500 əlyazma isə Şərq dillərində vardır. Burada çoxlu sayda dövri mətbuat da mövcuddur.

**Xalq evinin kitabxanası.**

1935-ci ildən fəaliyyət göstərir. Onun kolleksiyası 23 min çap məhsulundan ibarətdir. Fondundan hamı istifadə edə bilər. Elmi müəssisə və cəmiyyətlərin kitabxanaları elmi-tədqiqat profilinə uyğun xüsusi ədəbiyyatla komplektləşdirilir.

**Türkiyə tarixi cəmiyyətinin kitabxanası.**

Ankara şəhərində yerləşir və 1931-ci ildən fəaliyyətdədir. Onun fondunda 60 mindən çox kitab və 48 min ədəd dövri mətbuat vardır. Əlyazmaların kolleksiyası 860 nüsxədən ibarətdir. Cəmiyyət rübdə bir dəfə "Bülleten" jurnalını çap edir və həmin jurnal kitabxanaya yeni daxil olan ədəbiyyat haqqında oxucuları məlumatlandırır.

**Türkiyə elmi-texniki tədqiqat cəmiyyətinin kitabxanası.**

1963-cü ildə açılmışdır. 2 minə yaxın kitab və 863 adda dövri mətbuat nəşrinin saxlayıcısı sayılır. Kitablardan başqa kitabxanada cəmiyyətin konfrans və qurultaylarının protokolları, fundamental tədqiqat sahəsində və tətbiqi elmlə məşğul olan alimlərin gördüyü işlər haqqında hesabatlar da toplanılır və saxlanılır.

Kitabxana aşağıdakı informasiya nəşrlərini çap edir: "Məlumat bülleteni", ayda bir dəfə "Elm və Texnika" jurnalını, "Məqalələrin kataloqu" (türk və ingilis dillərində), "Milli alimlərin dissertasiya göstəricisi", müxtəlif mövzulara aid biblioqrafik göstəricilər.

**Memorial və muzey kitabxanaları.**

Köprülü kitabxanası (İstanbul) Baş vəzir Mehmet Köprülü tərəfindən 1667-ci ildə yaradılmış və onun ölümündən sonra varisləri tərəfindən fondun artmasına öz töhfələrini vermişdir. Kitabxanada saxlanılan 3 mindən çox kitabdan 2,7 mini əlyazma olub, onlardan 193-ü ilkin osmanlı yazılı abidələrinə və 42-si minillik qədim tarixə malikdir. Əlyazma kitablarının 2553-ü ərəb, 170-i ərəb hərfli türkcə və 60-ı isə fars dilindədir. Kitabxanadakı əski əsərlər arasında iki dəniz yol xəritəsi də vardır (1-ci xəritə - 1572; 2-ci isə - 1858-ci ilə aiddir). Fondun çap kataloqu Sultan II Əbdülhəmidin dövründə tərtib edilmişdir. Tərtib edilmiş kataloqa görə, mövcud kitablar üç hissəyə (Köprülü Mehmet Paşa, Fazil Əhməd Paşa və Mehmet Asim bəy hissələri) ayrılmışdır. Kitablar elm sahələrinə görə düzülərək nömrələnmişdir. Məsələn, Quran, hədis, fiqh, təfsir kimi dini kitablar birinci, riyaziyyat, tibb, tarix, ədəbiyyat və digərləri də onların ardınca düzülmüşdür. Köprülü Fazil Paşanın kitabxanaçı peşəsi haqqında öz fikirləri də çox maraqlıdır. Burada göstərilir ki, kitabxanada çalışanlar dindar, qəlbi təmiz və geniş biliyə sahib adamlar olmalıdır.

**Nuru Osmaniyyə məscidinin kitabxanası.**

1775-ci ildə yaradılmışdır. Nuru Osmaniyyə kitabxanasının 12 metrə çatan bir qübbəsi ilə 14 sütunla dövrələnmiş, 13 qübbəcikdən meydana gəlmiş, Qərb və Şərq memarlıq üslubunu özündə birləşdirən gözəl bir oxu zalı vardır. Kitabxananın fondu 10.000-ə yaxındır. Kitabların əksəriyyəti ərəb, bir hissəsi türk və fars dillərindədir. Kitabxanada daim diqqət mərkəzində olan və tez-tez müraciət edilən əsərlər əski tarixə aid əlyazmalardır. Fondunda İslam dünyasının Ana kitabı - Quranın qədim nüsxələri də mühafizə olunur.

İstanbulda Süleymaniyyə məscidinin nəzdində yaradılmış Süleymaniyyə Kitabxanası nəinki Türkiyənin, hətta bütün türk dünyasının ən zəngin və ən qiymətli əlyazmalara malik kitabxanalarından biridir.

Qaynaqlarda kitabxananın yaranma tarixi 1557-ci il kimi göstərilmişdir. Zaman keçdikcə bu kitabxananın yerləşdiyi mədrəsə baxımsız hala düşdüyündən bu hal kitabxanaya da öz təsirini göstərmişdir. Sultan I Mahmudun dövründə, yəni 1740-cı ildə Süleymaniyyə məscidində bir kitabxana yaradılmışdır. Kitabxananın fondunda 100.000 nüsxədən çox ədəbiyyat vardır ki, onun da 70.000-i türk, uyğur, ərəb və fars dilində olan qədim əlyazmalardan ibarətdir. Kitabxananın ilk kolleksiyası XVII əsrdə təşkil edilmişdir. Sonralar fond xüsusi şəxslərə, nüsxələrə, din xadimlərinə aid 92 kolleksiya hesabına daha da artmışdır. Əsası XVI əsrdə qoyulmuş, II Sultan Mehmetin əlyazmalarından ibarət Fateh məscidinin kolleksiyası da Süleymaniyyə kitabxanasının balansına verildi. Bir az sonra Xosrov Paşanın 13,5 min köhnə türk kitabları və 3 min nüsxə əlyazması da Süleymaniyyə kitabxanasına verildi.

Kitabxana qədim əlyazmalara görə dünyanın məşhur kitabxanaları içərisində aparıcı yerlərdən birini tutur. Süleymaniyyə Kitabxanasının fondundan il ərzində 10.000-dən çox oxucu istifadə edir ki, onların da əksəriyyətini elmi işçilər təşkil edir. Kitabxana fondunun zəngin əlyazmalarından istifadə edənlər arasında xarici ölkələrin şərqşünasları da çoxluq təşkil edir.

Türk və xarici elmi-tədqiqatçıların sorğularını ödəmək üçün kitabxananın nəzdində əlyazmaları mikrofilmləşdirən və fotosurətlərini çıxardan xidmət şöbəsi də fəaliyyət göstərir. Həmin xidmət şöbəsi mikrofilmlərin arxivini də yaratmaqla məşğuldur.

Topqapı muzey kitabxanası saray və şəxsi kolleksiyalardan ibarətdir. 18 min ərəb, fars və köhnə türk əlifbası ilə yazılmış əlyazmalar və 23 min arxiv sənədləri fondun özəyini təşkil edir. Muzey kitabxanası öz fondunun iki cildlik türk əlyazmalarının kataloqunu nəşr etdirmişdir.

Beləliklə, Türkiyənin kitabxana, muzey və arxivlərində ərəb, türk və fars dillərində olan dünyanın ən qiymətli əlyazmalarının 80%-i, həmçinin xeyli miqdarda latın, yunan və digər dillərdə olan əlyazmalar toplanmışdır.

Hazırda ölkədə 700-ə yaxın kitabxana mövcuddur ki, onların da əksəriyyətini xalq (kütləvi) kitabxanaları təşkil edir.

**Türkiyə Milli Kitabxanası**

Türkiyə Milli Kitabxanası dünyanın ən gənc Milli Kitabxanalarındandır. Türkiyə Milli Kitabxanasının qurulmasına 1946-cı ilin 15 aprelində Milli Təhsil Nazirliyinin Yayımlar Müdirliyinin bir bürosunda başlanılmışdır. Qısa bir zamanda kitabxananın fondunda 8000 nüsxə ədəbiyyat toplanmışdır. 1 aprel 1947-ci ildə Milli Kitabxana başqa binaya köçürülmüş və fondu 60.000 nüsxəni təşkil etmişdir. 1948-ci il avqustun 16-da Milli Kitabxana oxucuların istifadəsinə verilmişdir.



Milli Kitabxana 1950-ci il martın 29-da qəbul edilmiş Quruluş Qanunu ilə öz təsdiqini tapmışdır. 18 may 1955-ci ildə qəbul edilmiş "Milli Kitabxananın Quruluşu Haqqında Qanuna Əlavə" adlı maddəsinə əsasən, Milli Kitabxananın tərkibində Biblioqrafiya İnstitutu yaradıldı. Milli Kitabxananın fəaliyyət göstərdiyi binasının gələcəkdə genişləndirilməsini nəzərə alaraq, 1965-ci ildə yeni kitabxana binasının layihələşdirməsinə başlanıldı. 1965-73-cü illəri əhatə edən bu layihə işləri 1982-ci ildə nəhayət ki, reallaşdı. Türkiyə Milli Kitabxanası 1983-cü ilin 5 avqustunda yeni müasir tipli binaya köçürüldü.

Milli Kitabxana 39.000 m2-lik bir ərazini əhatə edir. Bina üç blokdan ibarətdir. Bina müasir tipli oxu zalları, fondlar, havalandırma qurğuları və s. ilə təchiz edilmişdir. Kitabxanada ayrıca bir sərgi zalı və iki toplantı salonu vardır. Kitabxananın yeni binasında Məlumat Mərkəzi, Danışan Kitablar, Atatürk Sənədləri, Kitabların Restavrasiyası və bərpaetmə laboratoriyası, Mikrofilm Arxivi, Nəşr Evi, Mikrofilm və Fotoqrafiya laboratoriyası da vardır.

Milli Kitabxananın əsas missiyası milli-mədəni sərvətləri toplamaq və onları həm ölkədə, həm də ölkədən kənarda təbliğ etməkdir. Bundan əlavə, Türkiyədən kənarda Türkiyəyə aid çap olunmuş nəşrləri toplamaq və onları mütəxəssislərə və oxuculara çatdırmaqdan ibarətdir. Milli Kitabxana Türk mədəniyyətinin aynası, milli xəzinəsi və türk millətinin yaddaşıdır. Milli Kitabxana kitab, əlyazma, nadir əsərlər, ərəb hərfi ilə nəşr olunmuş əsərlər, gündəlik qəzetlər, jurnallar, bülletenlər, afişalar, xəritələr, notlar, səs yazıları (CD və kasset), rəsm əsərləri və s. materiallardan ibarət 2.560.372 nüsxədən ibarət fonda malikdir.

Türkiyə Milli Kitabxanası aşağıdakı üsullarla komplektləşdirilir:

a) Məcburi nüsxələr.

1934-cü ildə qəbul edilmiş qanuna əsasən, bütün nəşriyyatlar çap olunan hər çap məhsulunun bir nüsxəsini kitabxanaya göndərir. Ancaq, yeni texnologiyaların yaranması ilə əlaqədar (CD-ROM və s. materiallar) bu qanunda dəyişikliklər edilməsini zəruri sayır.

b) Satınalma yolu ilə.

Ölkə xaricində Türkiyə və türklərlə bağlı nəşrlərin alınıb ölkəyə gətirilməsi.

c) Bağışlama yolu ilə.

Müxtəlif təşkilatlardan və şəxslərdən hədiyyə və seçmə yolu ilə materialların qəbul edilməsi.

d) Dəyişmə yolu ilə.

Türkiyə Respublikası ilə müxtəlif ölkələrin Mədəniyyət Nazirlikləri ilə razılaşmaya əsasən, kitabxanalararası abonement vasitəsilə başqa ölkələrin kitabxanaları ilə qarşılıqlı dəyişdirmə yolu ilə.

Türkiyədə çap olunan bütün materialları əhatə edən Türkiyə Biblioqrafiyası nəşr edilməyə başlandı. 1928-1938-ci illəri əhatə edən ilk biblioqrafiya 1939-cu ildə nəşr olundu. Türkiyə Biblioqrafiyası 1953-cü ilin sonuna qədər üç aydan bir nəşr olunurdu. 1954-cü ildən 6568 saylı Qanuna əsasən, bu işlərin aparılması Milli Kitabxanada yaradılmış Biblioqrafiya İnstitutuna həvalə edildi. Biblioqrafiya əvvəlki görkəmini dəyişərək inkişaf etmiş ölkələrin buraxdığı biblioqrafiyaların standartlarına uyğunlaşdırıldı. Türkiyə Biblioqrafiyası 1985-ci ilə qədər nəşr əsərlərini əlifba qaydalarına əsasən düzdürürdü.

Bu tarixdən etibarən biblioqrafik təsvirlər Anqlo-Amerikan Kataloqlaşdırma Qanunlarına uyğun düzülərək ayda bir dəfə yayımlanmağa başladı. Türkiyə Biblioqrafiyası 1989-cu ildən elektron versiyasına keçirilmiş, 2003-cü ildən isə CD-ROM-lara köçürülərək ayda bir dəfə buraxılır.

1952-ci ildən Milli Kitabxana kitabxanaya daxil olan elmi və mədəni nəşrlərdəki məqalələri əhatə edən Türkiyə Məqalələr Biblioqrafiyasını nəşr etməkdədir. 1952-1985-ci illərdə Türkiyə Məqalələr Biblioqrafiyası üç aydan bir nəşr olunurdu. 1986-cı ildən etibarən isə ayda bir dəfə nəşr olunur. Hər buraxılış 1700-ə yaxın məqaləni əhatə edir.

Türkiyə Məqalələr Biblioqrafiyası 2003-cü ildən CD şəklində və PDF variantında ayda bir dəfə buraxılır.

Kitabxanadan ildə 200 mindən çox oxucu istifadə edir. Kitabxananın oxu və abonement zallarından il ərzində 50,7 min oxucu istifadə edir.

• M.MƏMMƏDOV,
• Y.QARALIYEV

**ƏDƏBİYYAT**

Библиотечная энциклопедия.- М., 2007.
Книги, библиотека, библиография Турции //Библиография, 1995, № 4.
http://www.mkutup.gov.tr/